# 13

Şahin Xəlil

Şahin Xəlil

# 13

**Bakı – 2011**

Redaktor: Şahin Xəlil
Korrektor: Ferat
Design and cover: Ferat

**Şahin Xəlil. "13". Bakı, 2011**
**Zırrama Nəşriyyatı | Zırrama Production**
**e-mail: zırrama.production@gmail.com**
**No limit!**

facebook.com/sahinxalil
facebook.com/writerferat

© Şahin Xəlil, 2011

*Salam, hörmətli oxucu. Necəsən? Mən də normal. Hə, bir az cızma-qara edim ki, kitab haqda qısa da olsa məlumatın olsun.*

*“13 mən”dən ibarət kitab sırf underground janrındadı. Ona görə sənin söyüş kimi, jarqon kimi kateqoriyalara ayırdığın sözlərə rast gəlsən təəcüblənmə! Çünki, “13” yeraltı ədəbiyyat nümunəsidi. Bəlkə yeganə kitabdı ki, burda yazıçı bicliyi yoxdu. Heç bir yalan yoxdu. Nə oxuyacaqsansa bil ki, realdı, var, hardasa yaşayır.*

*Maraqlı faktlar:*

1. *Kitabdakı ilk heyakə - "Zibiləm" 2009-da yazılıb.*
2. *"Uşağam", "Bakıyam" hekayələri ən uzunmüddətə yazılmış hekayələrdi.*
3. *Ən çox ixtisar olunan hekayə "Sadistəm" di.*
4. *"Sevgiyəm" hekayəsinin ilk abzasını, "İnsanam" hekayəsini isə bütövlükdə Ferat yazıb.*
5. *Hekayələrin çoxunda sürreallıq var.*
6. *Kitabda NLP-dən istifadə olunmayıb.*

*Beləliklə undergroud silsiləsindən növbəti e-booku oxumağa başlaya bilərsən. Payıza kimi bəsindi...*

***Hər yazını bitirdikdən sonra ona aid məsləhət bildiyimiz musiqiləri dinləsəniz yaxşı olar.***

- Yazaram/ Cem Adrian - Ağladıkca
- Yazıyam/ Eminem - Sing for the moment
- Oxucuyam/ Sting- Shape of my heart
- Sadistəm/ R.E.M.- Losing my religion
- Adminəm/ Miri Yusif - Əlvida
- Uşağam/ Zamfir - The lonely shepherd
- Dəliyəm/ Guy Farley - Suite
- Təlxəyəm/ Emre Aydın- Hoşcakal
- Bakıyam/ Ennio Marricone - Le vent, le cri
- Zibiləm/ Sagopa Kajmer- Karikatür komedya
- Sevgiyəm/ Gülce Duru & Can Box- My woman
- İnsanam/ Qan qrupu- Təlqin
- 13-əm/ Nina Zilli- 50 mila

# Mündəricat

Yazaram ..........................................................7
Adminəm..........................................................9
Dəliyəm..........................................................12
Bakıyam..........................................................14
Oxucuyam.......................................................16
Sadistəm..........................................................18
Sevgiyəm.........................................................21
Təlxəyəm.........................................................24
Uşağam.............................................................26
Yazıyam............................................................28
Zibiləm..............................................................30
İnsanam.............................................................32
"13"əm...............................................................35

# Yazaram

*"Oxumaq istədiyimi yazıram!"*

Hm... bəli, mən bir yazaram. Anonimliyimi qorumaq şərti ilə danışmağa razı olmuşam. Heç özüm də bilmirəm nədən danışım. Bir az əvvələ gedib deyə bilərəm ki, subayam. Bəlkə də elə ona görə subayam. Necə yəni dəxli var?! İnsanlar yazarları sevir. Qızlar isə lap sino gedirlər axmaq yazıları oxumaq üçün. Hökmən də min səhifəlik kitabdan yaddaşlarında ancaq sevgiyə aid bir-iki səhifə qalacaq, vəssalam. Sonra da o bir-iki səhifədə olan cümlələri sms ilə cındır sevgililərinə göndərəcəklər. Arada ağıllı görünsünlər deyənə çantada da daşıyırlar kitablarımı. Camaatın bol olduğu yerlərdə, məsələn parklarda, metroda, avtobuslarda çıxarıb, oxuyurmuş kimi ciddi sifət alırlar. Oxuyurlarmı? Zıırt! Bu oğlanı özünə bənd etməyin ən gözəl üsuludu. Yəni fikrim kitabdadı və heç kim mənə maraqlı deyil. Başı aşağı qız axtaranlara fürsət. Kitab oxuyan qız "quş" ola bilməz təxəyyülünü ilk dəfə düşünən, sənin atabatava lənət! O qızın qarnı ağrısa görməmişliklə oxuduğu kitabın səhifəsini cırıb, dalını da silər düşünmədən. Kim ki, düşünür yazarlar fərqlidi, qələt eliyir. Mənim də bir burnum, iki qulağım, on barmağım var. Yazarlıq çox sadə məntiqə söykənir. Yalançılığa. Fantaziya düşünənlərə sual: bəs fantaziya nədir, yalan deyil? Amma proloqu mən olan bu kitabda bir dənə də olsa yalan cümlə yoxdu. İnanmırsansa cəhənnəmə inan. Sən onsuzda heç nəyə, heç kəsə inanmırsan. Allaha belə. "İnanıram" dediklərin sənə tanış sözlərdən başqa bir şey deyil. Allaha görə ölənləri misal çəkmə mənə! Cənnət mafia klub deyil ki, şübhələndiyini vurub, orda hurilərlə kamasutra öyrənəsən.

Bir az da özüm haqda danışım. Heç bir təşkilata, qrupa, birliyə üzv deyiləm. Olmaram da. Bu bilirsiz nəyə bənzəyir? Kimlərsə şahmat oynayır və sən həmin ağ-qara damalar üzərində olan fiqurlardansan. Demirəm peşkasan, lap şah ol. Səni mat edən ki burnu fırtdıqlı Kamildi. Yəni onsuzda həyatda fiqur olaraq idarə olunuruq. Hələ də ölürük,

doğuluruq, xəstələnirik. Bu boyda oyunun içində oyunçu ola-ola yeni bir oyunun oyunçusuna çevrilməyi mənə heç kim inandıra bilməz.
Yazıram. Ürəyim nədən istəyir, necə istiyir yazıram. Pul xərcləmək istəyəndə çap elətdirirəm. Pula ehtiyac olanda isə satışa buraxıram. Birinci, ikinci kitabım tutub deyənə, kifayət qədər oxucu kütləsi toplamışam ətrafıma. Və indi rahat-rahat nə zibil yazsam bilirəm ki, alıb oxuyacaqlar. Hələ tərif də edəcəklər. Eee, bilirəm sənə maraqlı gəlir ki, şöhrət necə bir duyğudu. Deyirəm... Bir zibil deyil. Kim səmimi, kim yaltaq bilinmir. Məhz buna görə bütün yazarlar kobud və soyuq görünürlər ilk baxışdan. Məktublara, mesajlara, zənglərə ya ümumiyyətlə cavab vermirlər, ya da gec cavab verirlər. Qınayana lənət. İnsan özü kimi düşünür axı. Tində durub gecə saat ikidə kiməsə zəng vuran elə bilir ki, zəng vurduğu da tində durub onun zəngini gözləyir. Belə bir düşüncə də var ki, tanındı, qudurdu. Sən öl deyirəm ki, boş söhbətdi. Ümumiyyətlə insan dəyişmir. Dəyişən ona qarşı fikirlərdi. Yəni kiminsə dəyişdiyini düşünürsənsə bu ancaq sənin düşüncəndi. Sabahdan səni küçədə barmaqla göstərsələr necə olarsan? Bir gün, iki gün xoş gələr, sonra? Məcbursan hər yerə taksi ilə getməyə. Bir gün, iki gün gəzərsən taksidə, sonra? Maşın alacaqsan, sonra? Özün sürə bilmirsən, sonra ? Məcbursan sürücü tutmağa. Bu dəyişməkdi? Əgər sabah mən də belə dəyişsəm bil ki, yeganə günahkar sənsən!
Ən zəhləm gedən şey də ki, mənə " oxucunam " deməkləridi. Bu hində toyuqlara mən " xoruzam " deməyə oxşayır. Belə... Özüm haqda da danışdım. Keçə bilərsən növbəti " Mən "-ə.

# Adminəm

*"İtirdiklərim arasında ən çox ağlım üçün darıxıram."*
*(Mark Tvein)*

Aha, bəli... Danışa bilərəm? Ok!

Salam. Adımın önəmi yoxdu deyənə, nikimlə özümü təqdim edim. Nikim Admindi. Elə özüm də sosial şəbəkələrdən birinin yaradıcısı və elə birbaşa adminstratoruyam. Düzü bu saytı yaradanda düşünməzdim ki, bu qədər insanı bir məkanda yığmaq mümkün olar, amma qısa vaxt kəsiyində minlərlə insanın kompyuterlərində saytım əlfəcinə çevrildi. Bir vaxtlar domein üçün hər ay verdiyimə deyindiyim 100-lüyün 100 qatını qazanıram.

Bir az keçmişə, saytın ilk günlərinə qayıdaq. Birbaşa nəzarətçi olduğum vaxtlara... Təbii ki, indi də birbaşa nəzarətçi özüməm, amma sonuncu dəfə öz saytıma nəzarət bir yana, nə vaxt daxil olmağım da, yadımda deyil. Amma o vaxtlar...

Sizcə sayt yaradan bir oğlan nə haqda düşünür ilk növbədə? Aha, bəli, qızlarla tanış olmaq və sayt "tutarsa" pul qazanmaq. Mən ikincini heç düşünmürdüm. Əsas məqsədim qız "ovu" idi. Tərslikdən də sayta qızlardan çox, oğlan gəlirdi. Oxuduğum qrupa, sonra universitetə saytım haqda məlumat yayılıncaya, sayta gözəl qızlar gəlincəyə qədər artıq beş qızla asanlıqla münasibət yaratmışdım. Admin olmağım işə yarayırdı. Virtual məkanın da öz yazılmış və yazılmamış qanunları var. Yazılmamış qanunlardan ən maraqlısı adminin kimliyi yox, dediyi söz və çıxartdığı qərar əsasdı. Yəni 70 kiloqramlıq mən, bodibildinq çempionunu da banner etsəm, haqlıyam. Çünki sayt mənimdi, mən yaratmışam, mən nə etsəm müzakirə olunmur. Yaxud istənilən qıza, şəkili olsa bilərəkdən, olmasa, "ya qismət" deyərək yaza bilərəm. Virtual psixologiyada admin prezidentə bərabərdi. Onunla tanışlıq şərəfdi. Bu mühüt həm mənə, həm də istənilən tipdə olan insana sərf edir. Yəni tay-tayını tapa bilir. Bir birlərini görmədən sevən cütlüklər də, var idi o vaxtlar. Sonradan evləndiklərini, xoşbəxt yaşadıqlarını öyrəndim. Savab da gətirirmiş sayt. Sözün düzünə qaldıqda etiraf edim

ki, admin olaraq istənilən istifadəçinin panelindən istənilən məktubunu, məlumatlarını görə bilərəm. O vaxtlar hər gün maraqlı görünən qızların panelindən məktublaşmalarını girib oxuyurdum. Onda bu mənə çox əyləncəli, hədsiz maraqlı gəlirdi. Özünü əxlaqlı, tərbiyəli, yüksək intellektli bir qız kimi göstərənlərin məktublarda virtual sekslə məşğul olmalarına gülürdüm. Bunu heç vaxt onların üzünə vurmasam da, gec-tez zibillərinin üstü açılırdı. Virtual seks demişkən, bu haqda da yazım ki, qaranlıq məqam qalmasın anlamayanlar üçün. Real seksdən fərqi odur ki, partyorunun üzündən tutmuş, hər şeyini və eyni zamanda "baş verən hadisəni" təsvir edərək həzz almaqdı. Bir sözlə- axmaqlığın son həddi. Heç cür anlamıram və haqq qazandırmıram.

Virtual məkanlar da fərqlidi. Sırf ero, gey, lezbi, emo, feminist, chat-love və s portallarla bərabər səviyyəli sosial şəbəkələr də var ki, bura qeyd etdiyim kimi səviyyə baxımından yuxarıda adlarını sadaladığım portallardan qat-qat üstündü. Başlıca üstünlük odur ki, ətrafını özün seçirsən, sistem yox. Yəni hər qeydiyyatdan keçən axmağın sənə yazdığı "gəl nəbilim kamasutra öyrənək" məktubunu oxumağa məcbur deyilsən. Bu baxımdan kiçik həcmli saytlar vəhşi təbiətə bənzəyir. Ya sağ qalıb ovlamalısan, ya da sənin özünü ovlayacaqlar. Bu saytlar əttökən musiqi sədaları altında yol gedən bazar avtobusuna bənzəyir. Həyatda ən pis şey öyrəşməkdi misalı bir başa buna aiddi. Realdan fərqli olaraq virtualda qızların hamısı Monika Beluççi, oğlanlar da, Van Dammdı. Heç bir saytı yox, elə öz saytımı misal çəkirəm bu baxımdan. Real kompleksli insanların özlərini virtuala təcrid edərək, qurduqları əlçatmaz stereotip arxasında gizlənmələridi. Əslində heç bir məntiqə söykənmir virtual anlayışı. Vərdişdi. Ən axmaq vərdişlərdən biri. Hətta kiminləsə tanış olmağa gələn insan, axtardığını tapandan sonra belə vərdişindən qurtulmağa çətinlik çəkir. Ailə quranlar barədə savab qazanırıqsa, ailə dağıtmaq üzrə də lənətli vasitələrdən ən öndə gələniyik. Mən pulumu qazanıram... İstifadəçilərə, onların duyğularına, düşüncələrinə cavabdeh olmadığımdan, hər kəs öz obrazını "doğduğu" virtuala gəldiyi kimi də, gedə bilər. Maraq çərçivəsinin genişliyi də kömək olacaq o zaman ona... Son olaraq bir şey də əlavə edim ki, statistikaya görə müxtəlif tanışlıq saytlarında gecə-gündüz yatıb qalan insanların 90% kompleksli, yalançı, zahiri görünüşü çirkin

olanlardı və çox nadir hallarda adminlər öz saytlarında tanış olduqları qızla ciddi münasibət qururlar.

# Dəliyəm

*“ Dünyada dörd cür insan var: aşiqlər, özünə vurğunlar, xəyalpərəstlər və dəlilər.” (İ.Ten)*

Görənlərin dilində dəli doğuluşumla öz adımı unutmuşam. Bəlkə mənim də həyatım elə sənin həyatın kimi tək rəngə boyana bilərdi. Oxumaq üçün müəllimə, universitetə, böyümək üçün valideyinə ehtiyac olmadığını çox erkən anlamasaydım. Elə o gün gələcək arzularıma gülərək, vidalaşdım. Çətin oldu özümü özüm kimi ətrafıma qəbul etdirmək. Arxamca uzanan barmaqlara, gülüşlərə öyrəşmək... Fərqli üzlərin, adların eyni arzularından, məqsədlərindən, hədəflərindən, bu kütlədən, bu eynilikdən, senaridən uzaqlaşmaq... Sadəcə yaşamaq... Sadəcə heç nəsiz, heç kimsiz yaşamaq... Haqq vermək Allaha ki, " Həqiqətən mən ən ali varlığam! "...

Sonuncu dəfə bir-neçə il öncə tanıdığım qadınla bitdi cibdəki sonuncu qəpik-quruş, inam sevgiyə. O da sevgini qohumlarının yanında kağız üzərində möhürləməkdə, həmin gecə heyvan kimi sevişməkdə, sonra doğaraq, ana olmaqda, nənə olmaqda görürdü. Heç nə demədən ayrıldım ondan. Desəydim belə dediklərimi analiz etmək bacarığının olmasına inanmazdım. Anladım desəydi belə, düşünücəkdi ki, başqası var, ondan daha gözəldi, nəbilim daha yaxşı öpüşür, daha gözəl ətir vurur, ayaqları daha uzundu və s.

Deyəsən ciyərlərimə bərk soyuq olub. Dərindən nəfəs ala bilmirəm. Əvəzində əsnəyirəm. Hamısı taxtaların zibillərindədi. Hə, sənə nə sənət sahibi olduğumu deməmişəm deyəsən. Xarratam. Xudmani iş yerim var ki, bütün iş proseslərini burda, təkbaşına rahat şəkildə görə bilirəm. Rəsmlər, fotolar üçün çərçivələr düzəldirəm. O çərçivələrə müxtəlif naxışlar, işləmələr də əlavə etdikdən sonra rəngləyirəm. Aparıb hər hansı bir əntiq əşyalar satılan mağazaya verib, pulumu alıram. Bu da olur mənim işim. Boş vaxtlarımda düzəltdiyim çərçivələrdən birini boğazımdan asıb, gəzməyə çıxıram. Görənlər mənə axmaq baxışlarla baxır. Mənsə o baxışlara istezalı gülüşlə qarşılıq verirəm. Axmaqların həyatı görünməz çərçivədə ola-ola, boğazımdakı görünən çərçivə onlara

qəribə gəlir. Nədi? Bəlkə sizlərdən biri olum? Qarnıma, əynimə, uşaqlarıma, arvadıma görə harda gəldi, nə oldu işləyim ki, təki pul olsun, hə? Rahatlığımı hər səhər zəngin səsinə pozub, sizinlə eyni istiqamətə axına qarışım.

Dəli deyil istədiyini edə bilən. Dəli istədiyi kimi yaşaya, düşünə biləndi. İstədiyi ölkəni ürəyinə gətirə biləndi. İstədiyi fəsli əyninə geyinə biləndi. Sevə biləndi, bağlı pəncərələr arxasında varlığından xəbərsiz yatan sevgilisini. Dönə biləndi hər "olmaz"-ın döngəsinə. Donmağı bacarandı ruhunun şaxtasında. Ölməyi əzbərləyəndi uçurumlarda.

Qalma, get!

Dayan, qulaq as...

İndi gedə bilərsən.

Hər səssizlik bir ölüm deməkdi. Hər ölüm isə bir azadlıq.

Bəlkə sabah heç olmadı. Bəlkə yatmaqla yola verdiyiniz qaranlıq səhər daha küsüb, getmədi. Qaldı. Bəlkə də sevişdiyin növbəti fahişə bu dəfə pulunu deyil, ruhunu aldı səndən. Qaldı. Bəlkə qarın bu dəfə ki elçiliyinə yox deyə bilmədi torpaq. Ərimədi yazda... Ərimədi yayda... Qaldı. Bəlkə oxuduğun növbəti sətir uzanmadı şüurun qovluğundakı yerinə. Qaldı. Bəlkə izlədiyin növbəti film dəyişdi baxışını. Tutdun əlindən yan oturacaqda əyləşən üzünü görmədiyin xanımın. Bəlkə insanlar unutdular yalanın mövcudluğunu. Məcbursan dəli olmağa indi. Mənim kimi, onun kimi, o biri kimi. Bəlkə şeytan da getdi onda. Siqareti damağına basıb, göz yaşını gizlədərək. Bəlkə, bəlkə heç ölmədik. Ya da adiləşdi ölüm də. Çərçivələr sındırıldı, yandırıldı və mən işsiz qaldım. İşini itirən ən xöşbəxt dəli oldum. Onda hamını sevəcəyəm. Səni də!

# Bakıyam

*Gedənin arxasından nöqtə qoyun ki, gələnin adı böyük hərflə yazılsın. (J. Christophe)*

Analı atalı yetim bir şəhərəm. Xəzərin sinəsindən yapışmış bir şəhər. Azanına oyadıb fahişəsi ilə yatırdanam insanları. Güllərimə aşiq olub şeirlər yazan şairlərin yalanıyam. Altlı-üstlü bir qəbirstanlıq anasıyam. Alçağı, oğraşı və namuslu fəqirini bir səma altına, bir torpaq üzərinə əkə bilmiş Allahın ən unudulmuş şəhəriyəm. Bayrağı bir kərə yüksələn anamın, müsəlman atamın boyunu yerə soxan bir qadınam.

Olmur ana, olmur... Özümü saxlaya bilmirəm pul görəndə. Oğlum İçərişəhərin orqanlarını, sovet məhləsini satıram. Gözüm doymur, ana! Kök sala bilmir ağaclar sinəmdə. Murdarlığımda çürüyürlər. Hər gecə küçəyə qovulan sərxoş ərlərin arvadı kimiyəm. Önümə çıxan ilk gözəl qadınla yatmaq üçün alışıb-yanan kişi kimiyəm. Uşaq kimiyəm, ana! Tərbiyəsiz uşaq.

Unuduram, ata! Hər gün nəsə unuduram. Böyük qardaşım Qarabağın ölümünü unutduğum kimi. Yox, ata, yox! Demə mənə yalan! Demə qardaşın sağdı. Demə qayıdacaq! Qoy unudum. Qoy içim qəmdən, iynələnim, sevişim sərxoşluğumla. Unudum məni qorumaq üçün şəhid olanları, qazi olanları. 50 manat təqaüd kəsim onlara ki, rahat olsun unutmaq. Yığışdırım müstəqilliyim uğrunda canından, qanından keçən oğulların şəkilini divarlardan, adlarını küçələrdən. Yatım Xəzərimin döşlərini qucaqlayaraq... Unudum torpağımı bəcərən ən qoca sakinimi. Unudum ki, o indi səfildi. Daha beli tutmur. Atıb qocalar evinə, unudum. Ya da bomj edim. Əlil arabası verim. Unudum qapısının rəngini... Ayırım sevənləri. Hər görüşləri sonuncu edim. Əlvidalar şəhəri olum. Qalstuklu eşşəklərə, qırmızı bantikli fahişələrlə oxşamaq istəsin hər uşağım. Kitablar ancaq qışda yada düşsün otaqları qızdırmaq üçün. Sobalarda yansın əbədilik.

Fəsillər kasıblar üçündü, ata! Ancaq onları xəstələndirə bilirəm şaxtamda. Ancaq onların evi su basır yağışımda. Ancaq onlar vəfalıdı mənə. Getmir. Gedə bilmir. Bəlkə getmək istəmir. Hər payız süpürür

toz-torpağımı. Çirkləndirir pəncərələrimi. Doğulmur daha dahilər. Doğa bilmir axmaqlar insan. Sərxoş halımla, dumanlardayam. Rədd olub getmək istəyirəm başqa ölkəyə. İnsanlarsız bir skamya tapıb, bircə saat yatmaq istəyirəm. İşi düz gətirməyən söyməsin, tüfürməsin mənə. Gözləməyim aeraportlarda ancaq gediş bileti alan bəxtsizləri. Bacara bilmədim! Xöşbəxt edə bilmədim heç bir sakinimi. Azad edə bilmədim. Yalançıyam, dost! Hər dəfə fişənglərlə, körpülərlə, bulvarla, uduşuna çıxan pulsuz kolalarla aldadıram səni. Plastik əməliyyatlar hesabına gözəl görünməyə çalışan kaftarlaşan qadın kimiyəm. Ona görə heç bir şair vəsf edə bilmir. Ona görə heç bir rəssam çəkə bilmir. Ona görə heç bir sevgi yoxdu. Ona görə evlərin, dükanların, açıq nə varsa, hamısının qapıları kilidlənir. Çoxdan ölmüş bir şəhər və leş iyinə öyrəşənlərin nağılı beləcə bitir...

Digərlərindən fərqli olaraq mən mən ola bilmədim. Nə etdilər, nə də olmaq istədim.

# Oxucuyam

*“Bütün bunları öyrəndim və artıq geri dönüşü yoxdu. Cahillik bir zamanlar sonsuz xoşbəxtlik idi.” ( Çak Palanik )*

Mən bu yazarı çoxdan tanıyıram. İməkləməyindən, ilk sözündən, ilk addımından. Bilmirəm paxıllıqdı ya nə, amma bir-iki kitab oxuyan, həmin kitablardan ilhamlanan hər bir oxucu özü də yazmaq istəyir. Mənim kimi... Asan bilir. Amma boş vərəq və barmaqlar arasında donan qələm susur. Heç nə yazmaq istəmir, olmur. Əlifba, sözlər eyni olsada sözlər cümlələr, cümlələr sətirlər yaratmır. Ona görə özünə əziyyət vermədən, düşüncüləri yormadan oxumaq daha gözəldi. Onsuzda sən oxumaq və yazmaq istəyəni yazır Kueylo, Markes, Bukovski, Hesse. Mənim dəli yazarım da... Nə düşünürsən hər onu oxuyanda? Bəlkə də düşünürsən ki, o heç sevməyib. O ən alçaq insandı. Qadınlara nifrət edir. Uşaq olmayıb, heç vaxt ağlamayıb. Hər gecə bir şüşə çaxıra dahiliyini, fahişələrlə bədənini təslim edir. Fevral qarı kimi... Yağdıqca, əriyir. Tanış olmamışdan öncə mən də elə düşünürdüm. Gözlərini görüncəyə qədər... Sevibmi görəsən? Bu günə kimi yeganə məhrəmi bu olub oxucularından. Məni axmaq kimi tanımasından qorxub vermədim bu sualı. Amma bilmirəm niyə, dözməyib nəhayət ki, verdim bir gün bu sualı ona. Sualıma cavab gözləyərkən, gözlənilməz sual gəldi ondan. "Sevən kimdi?" ... Ağlıma ilk gələni dedim: “Romeo”. Gülümsədi... Cavab vermədi. Heç bir həftə keçməmiş mənə yeni yazısını göndərdi. Yazıdan bircə cümlə ilişib qaldı düşüncəmdə. "Romeo və Culietta”nın zahiri sevgiləri daxili axmaqlıqları, uyğunsuzluqları, çirkinlikləri örtəcək qədər böyük idi". Nə demək istəyirdi? Yox, hərdən suallar cavabsız qalsa yaxşıdı. Onun üçün insanlıq yataq, ehtiras, sufilikdən çoxdu. İnsanları özünə sevdirib, nifrət etdirməyi gözəl bacarır. Hər insan bir kitabdı deyirlər. Hər növbəti səhifədə azalır kitablar. Amma o artır. Çox bəsit insan obrazı formalaşdırıb zahirdə. Oxuduqca bu bəsitlik elə dərinləşir, elə genişlənir ki, Nəsimiyə "Sığmazam" qəzəlinə görə rəhmət diləyirsən. Nəyi dərk etmirsən sənə mənasız gəlir. Hə, əmin ol ki, elədi. Bu alimlə fəhlənin bir stol arxasına düşməsinə bənzər. Bu

kitabın mövzusu yoxdu. Mənasızlaşırsan oxuduqca, ucuzlaşırsan. Ömür boyu pozitivlik axtarışları səni ölüm döngəsinə aparır. Döngədən burulanda anlayırsan, anlayırsan ki, dünyanı dəyişdirmək istəyi ölüm həqiqətinin köləsidi. Oxuduğun kitabdakı Knulp da, Zamsa da müəllifləri Hesse və Kafka kimi ölürlər. Və sən də bunu bilə-bilə heç nə edə bilməyəcəksən. Öləcəksən! Hər oxuduğun kitabın qəhrəmanı kimi 5-10 dəqiqəlik təsir altında qalmaqdan, sonra isə yağlı bir söyüşlə hər şeyi öz aləmində cəhənnəmə göndərməkdən başqa heç nə bacaran deyilsən. Sən özünə ən yaxın insanların əhatəsində güclü saymısan və sayırsan özünü. Bircə ölümlə necə zəif və çarəsiz olduğunu anlayırsan. Qınama yazarımı! Qınama ki, standartlardan kənar yazır. Öldürür sevdalı başındakı duyğu hüceyrələrini. Gözlədiyin kimi bitmir cümlələr. Güzgü tutur sözlər əksinə. Diksindirir. Qoparır zorla səndən müştəbehliyini, ən alçaq arzuları. Oxuya bilməyəcəksən yazdıqlarını, körpən yatsın deyə. Hər dəfə çərçivəli dünyanı dağıtmaq istəyəcəksən siçanı "13"-ə klik edəndə. Qorxa-qorxa... Ailə qanunları isə proqramlaşmış valideynlərdən, onların sənin üçün seçdiyi otaqdan, rəfiqələrdən, geyimlərdən, gələcək, heç tanımadığın ərindən belə qorxacaqsan "13"-ə görə. Hind filmlərindən tanış olduğun dünya bir gün Trier dramını göstərəcək sənə. Mütləq göstərəcək. Anlayacaqsan ki, qara rəng boğur hər rəngi. Tərbiyənlə sevişəcəksən, öpüşəcəksən, doğacaqsan, işəyəcəksən, öləcəksən. Xəyallarında fahişələşdikcə hələ çox öləcək Təhminələr, Malenalar. Hələ çox epiloqlar yazılacaq romanlara ki, sənin kimi axmaqlar əsəri tam qavrasınlar. Hələ çox, daha da çoxalacaq səhifələr kitablarda ki, fantaziyalar aydınlansın obrazlara qarşı. Hələ çox sənin kimi oxucu düşünə bilməyəcək ki, minimum 200 oxucunun ən azı 24000 dəqiqəsi yazarıma ithafdı.

Nə isə, mənlik bu qədər. Çevir növbəti “mən"-ə.

# Sadistəm

*"Əgər insan niyə yaşadığını bilirsə, onun üçün necə yaşamağın əhəmiyyəti yoxdur. " ( Fridrix Nitşe )*

Sənə iki sualım var. Oxumamışdan əvvəl bu suallara cavab verməyəni söyürəm!

1. Sadist deyəndə o axmaq ağlına nə gəlir?
2. Niyə qızların sadist oğlanlardan xoşu gəlir?

Cavab fikirləş.

Gözləyirəm.

Söyüşüm qüvvədədi.

"Bilmirəm"-lə yola verəni də söydüm.

Düşün!

Boyun ardına vuranlar isə cavab verməmiş oxuya bilərlər. Görürəm səni! Bu kitabda virus var və yükləyəndə həmin virus asanlıqla düşür əziz-xələf komputerinizə və nə pox yeyirsizsə hər şeyi göstərir mənə. İnanmırsan? Sübut edim? Ok, məsələn on dəqiqə əvvəl tualetdə gücənirdin. Sonra da fırlatdığın qıza " sevirəm " dedin. Cındır adamsan da bir sözlə. Yatmamışdan qabaq da Kayden Kross-un pornosuna baxıb, masturbasiya edəcəksən. Heç olmasa məni oxuyanda murdar əllərivi yu. İnan ki sənin əlindən çıxartmıram e kitab. İstəmirəm məni sənə satsınlar. İstəmirəm nənənin tumanından çıxarıb sənə verdiyi "beşliyi" məni satan gözəl xanıma verəsən. Vermirəm sənə bu bəhanəni. Rahatam ki, nə vaxtsa bükülüb, semiçka torbası olmayacağam. Nə vaxtsa satışa çıxsam, gülərsən. Kalan gülərsən. Gedib kitab mağazına girib, pulu gözəl satıcıma uzadana qədər gülərsən. Onda... Məhz həmin anda isə, mən sənə güləcəyəm rəfdən. Bütün kitablar da mənə qoşulacaq. Bilirsən niyə? Çünki gözəl satıcım sənə dalımı göstərib deyəcək: " Bağışlayın, amma müəllif bu fotorobota bənzəyən insanlara kitabının satılmasını qadağan edib!" O fotorobotda isə püxtələşmiş oğraş siması olacaq. Necədi? “Like” elə və Kueylo ilə paylaş.

Həə, indi keçək sənə. Ayala, bu nə ağıllı qızdı... Mələk simalı, xırda üz cizgili, bu dəqiqə mənimlə dəli kimi öpüşmək istəyən gülərüz

tip. Siqaret də çəkirsən xəlvətdə. Çantada da həmişə dirol, ətir, kosmetika, 3-4 qələm, güzgü, nəm solfetka, metro kartı, pozulmuş telefon kartı və telefon, vəsiqə, tələbə bileti və qulaqcıqlar. Mail adresə " Mila ", " Şokoladka " yazmaqla, sensor telefon işlətməklə, " gucci " apravalı eynək taxmaqla, çəhrayı bantik vurmaqla, svarovski qaşlarla bəzənən sumkayla deyil ki... Salamdan əvvəlki " Alo " dakı " O " ların əzilib-büzülərək əyilməsi, sonrakı cümlə, onun deyiliş tərzi, səsin tonu, ləhcəsi artıq tanıdır səni mənə. Ən murdar fahişədən də beş bətərsən mənimçün. Qaloşundan palçıq qurumamış artıq rusdilli olmusan, kəntoş ləhcənlə. Radiohead, U2, Aerosmith, Eminem, Teoman Rammstein lə maskirovka edə bilərsən zövqünü qrupdakı axmaq rəfiqlərindən. Amma ay axmaq, məndən ki, gizlədə bilmərsən. " Download " etdiyin mahnıların siyahısını verəcəyəm emo sevgilinə. Qoy kövrəlsin, ağlasın, damarlarının qanını zövqünə töksün. Arada lakla örtüyün dırnaqların arasındakı mikrobları dezinfeksiya elə atanın hər gün leş kimi içdiyi arağın rumka divarlarında yapışıb qalan 1-2 damcısında. Ananın da xətrinə atana verdiyi " Qəbrinin üstünə də araq tökəcəyəm öləndə! " sözünü də bərk saxla yadında. İnan bu atanın da xoşuna gələcək. Hm rəfiqələrindən iki şey öyrən. Ən yaxşı maşın markasını, ən yaxşı burcutmaq üsulunu. Gəz budaq-budaq, maşın-maşın, blutuz-blutuz. Sonra da fahişə sifətinə məsumiyyət maskası taxıb, çıx evlilik proqramlarına. Beşqəpiylik elə bütün oğraş elədiyin kişiləri. Bilirsən? Ərə gedən, xanım kimi əsl xanım olaraq 1-2 qarın doğsa da heç vaxt əri ilə qızışan olmayıb. Ümumiyyətlə qızmayıb həyatı boyu. Ona görə kişi kimi qadın deyirlər belələrinə. Amma o qızanları heç vaxt, heç nə və heç kim soyuda bilmir. İllər də, həyat da, yaş da, qırış da, adının böyrünə qoyulan ana, nənə statusları da. Heç nə! Ölüm də. O elə cəhənnəmdə də yanacaq. Ona ən ədalətli cəza cənnətdi...

Hələ də qınayırsan məni? Axı heç kim özü seçə bilmir duyğuları. Axı heç bir kitabda duyğuların əsl mahiyyəti açıqlanmır. Axı ən tərbiyəli qız belə on səkkiz illik tərbiyəsini bir gecə gördüyü pornoqrafik yuxularla itirir. Əllər oynamasa da, gözlər hər şeynən oynaya bilir axı. Bu ehtirasın doymaq limiti yoxdumu?! Bu suala cavab yoxdu, keç üstündən, düşünmədən. De görüm başda verdiyim suallara cavab tapdın? Tapdığın cavablar əmin ol ki, gülüncdü. Hər şeyi bilmək

məcburiyyətində olmadığın üçün, elə bu an sağollaşıram səninlə və göndərirəm qonşu "Mən"-in üstünə.

# Sevgiyəm

*" Hər kişi həyatında mütləq bir qadını ömür boyu sevər. Hər qadın bir kişiyə mütləq ömür boyu əzab çəkdirər." ( P. Coelho )*

Ad günündə ən gec səni təbrik edən mən olmuşdum. Sən isə o gün ilk təbriki məndən gözləyirdin. Bilə-bilə səni sonda təbrik etmək qərarına gəlmişdim. Axşam saat 11-də pəncərənin qabağına gəlmişdim. Hava yağmurlu idi. Sənə nə qədər zəng edirdim, amma sənsə zəngləri qarşılıqsız qoyurdun. Bilirdim ki, mənə çox hirslənmisən. Sonda " Əgər telefonu götürməsən, pəncərənin şüşəsini sındıracağam " yazıb mesajla sənə yolladım. Bilirdin ki, dedimsə edəcəyəm. Sən də məcbur olub zəngimə cavab verdin.

- Salam. Bağışla, bu gün səni təbrik etməmişəm. Bilirəm, elə düşünürsən ki, unutmuşam. Səncə mən bunu unudacaq qədər axmağam?

- İnanmıram. Yalan danışma! Bilirsən, bu gün bütün günü gözüm telefonun ekranında olub. O qədər, təbrik gəlib ki, amma heç birini oxumamışam. Heç kimdən zəng qəbul etməmişəm. Ancaq səndən bir zəng, ya da bir mesaj gözləmişəm. Bilirsən nə qədər ağlamışam. Səhərdən otağı mdan çıxmamşam . .

Mən islanmış pencəyimin cibindən biletlər çıxarıb , cavabında "Mənimlə Parisə getməyini istəyirəm " dedim. Bu sözlərdən sonra necə təəccüblə mənə baxdın. Hələ də sifətindəki o qəribə mimika yaddaşımda ilişib qalıb. Sonra birdən yox oldun. Bir də baxdım ki, mənə tərəf gəlirsən. Ayaqyalın palçıqlı asfaltda mənə doğru addımlayırdın. Mən Parisi hədiyyə etmişdim o gün sənə. Sənsə yağışın damlaları altda isti bir öpüş bəxş etdin mənə. Sən Parisi çox sevirdin. Daim xəyallarımızda küçələrini gəzdiyimiz şəhər... Axı sənə demişdim. Bir gün səni ora aparacağam. Bir az pul yığmışdım. Dostlar sağ olsun. Bir az da onlar kömək etmişdilər. Evdəkiləri necə aldadacaqdıq bəs getməyimizə? Sonda "Bizi Fransaya dörd günlük universitetdən praktikaya göndərirlər." deyib evdəkiləri getməyimizə razılıq versinlər deyə,

aldatmışdıq. Çətin olmuşdu onları aldatmaq. "Dörd günlük praktika olar" demişdilər. Sağ olsun müəlliməmiz. Kömək oldu bizə. Bir-birimizi necə sevdiyimizi bilirdi. Evdəkiləri inandıra bildik onun köməkliyi ilə. Və daim getmək arzusu ilə yaşadığımız sevgi şəhərciyimizə getmişdik. Sənlə keçirdiyim dörd gün... Parisin küçələrində əl-ələ gəzməyə çıxdığımız ilk gündə gəldiyimiz o kiçik kafe... Eyfelin yanında yerləşirdi. İçəriyə daxil olub, mənzərəsi o dəmir yığınına baxan masada oturduq. Sinatranın səsi kafeni bürümüşdü. Sonra qarson qramafona yaxınlaşdı və bir val qoydu. Mireille Mathieu... Une Historie D'Amour... Yadina gəlir, səsilə bizi valeh etmişdi. Rəqs etmişdik o balaca kafedə musiqinin sədaları altında. Hamı bizə baxırdı. Sənə heç vaxt o qədər yaxın hiss etməmişdim özümü. Həmişə qoxlamaqdan bezdiyim şanelinin ətri bu dəfə fərqli ahəng qatmışdı saçlarından qoxladığım isti nəfəsimə. Dodaqlarım alt dodağına toxunanda özümü qanadlanmış kimi hiss etmişdim. Divardan asılmış Dalinin " Əriyən saatlar " ilə yox olmuşdu zaman. Rəqsimizdən sonra masaya əyləşəndə bizə yaxınlaşan o qoca uzun saqqalı rəssam yadındadı? Rembranta bənzəyirdi. Biz rəqs edərkən ağ kağıza rəsmimizi çəkibmiş. Hələ də o rəsm otağımın divarında asılı durur. Sonunda imzasını da qoymuşdu: *1 novembre, 2004. Meilleurs voeux .. Musée d'Orsay.*

Yox belə bitmir dramlar. Belə bitmir gerçək sevgilər. Bitə də bilməz. Nə mənası olardı sevgilim ? Necə dərd otağına çevrilə bilərdik yaralı insanların, əgər belə axmaqlıqla bitsəydi bu hekayə, bu nağıl. Göydən üç alma düşsəydi sonda Sudanda aclıqdan torpaq yeyən üç yetimin başına. Baş-başa çəkdirdiyimiz evlilik fotosunun asıldığı divarın küncünə körpəmiz üçün beşik qoysaydıq. Səni böyüdüyün evdən, tərbiyədən, otaqdan qoparıb qəlbimə uzatsaydım bir cındır kağız parçası ilə. O kağızla sən arvad və mən ər olsaydım. Altı gün eşşək kimi işləyib, səbrsizliklə bazar gününü gözləyib, ailəvi dəniz kənarı parkda

gəzintini planlaşdırsaydım. Sənin hər nüansını, bədənin hər qarışını əzbərləyib, istəklərini gözübağlı anlasaydım. İçkinin dadını ilk dəfə dodaqlarımda dadsaydın, axmaq kimi səbəbsiz, xöşbəxtlik bəhanəsi ilə gülsəydin, əlini bədənimə əzbərlətsəydin... Səni bütün rənglərdə, bütün mümkün dəyişikliklərdə görsəydim. Azadlığımı səndə əsrə çevirsəydim. Mənə olan sevgini doğduğun uşaqlarımızla möhürləsəydin. Bir, iki, üç, lap min, milyon dəfə sevişsəydik. Hər sevişmədə utancaqlığın qancığlıqla əvəz olunsaydı. Məcbur etsəydim özümü səni vərəqlərə tökməyə, hər obraz üçün səndən bir şey oğurlasaydım. Bişirə bildiyin bütün xörəkləri dəfələrcə yesəydim, bildiyin bütün bildiklərini səndən də yaxşı bilsəydim. Dodaqlarından çıxan sözlərdə olan hərflərin cingiltilərini qulağım o hərflərin düzüldüyü sözləri, dodaqdan çıxmamış anlayacaqdısa... Kipriklərinin, xallarının sayına qədər bilsəydim. Qohumlarını, sinif yoldaşlarını, rəfiqələrini, salam verdiyin hər kəsi tanısaydım. Parisdən sonra arzumuz Tibet, Bueynos Ayres, Qvatemala, Liberiya olsaydı və oralara da ayağımız dəysəydi. Hilton otellərdə qalıb, yüz illik şərablar içsəydik. Nə mənası var idi sevgilim? Bizim hekayəmiz elə belə də bitdi. Əbədi vergül kimi…

*" Sevgini tam mənasında dadmaq istəyirsən ? Onda elə bu dəqiqə sevgilin dediyindən ayrıl! "*

# Təlxəyəm

*“Dünyada varlı,kasıb,hər şeyə qadir,heç nə bacarmayan insanlar var. Amma öləndə hamısı eyni iy verir.” ( Adolf Hitler)*

Bilirsən, dost? Axı hardan biləsən...

Ancaq güzgü bilir. Ancaq güzgü! Heç uşaqlıqda kloun olmaq istəyənə rast gəlmisən? Axtarma! Yoxdu elə bir axmaq. Heç mənim də arzum deyildi təlxək olmaq. İki pəncərəsindən biri açılan məhəcərdə oturub, səmalara uzun-uzadı dalıb gedərdim. Pilot olmaq istəyirdim. Yarmaq istəyirdim ağ təyyarəm ilə buludları. Amma təlxək oldum. Hamını güldürmək missiyasının əbədi daşıyıcısı olan bir obraz olaraq. Güldürməliydim! Gülməli idilər! Bu mənim işim idi. Bu mənim qazanc yerim idi. Yüksək yumor hissinə malik olmayan uşaqların, onlardan düşüncə ilə fərqlənməyən yekə qarın axmaq day-dayların təlxəyi idim. Onlar həmişə haqlı idilər. Götümə təpik də vuranda, qırmızı taxılma burnumu qoparanda, başımda sözün əsl mənasında qoz sındıranda. Gülməli idim. Gülürdüm. Gözlərim söysə də, ürəyim bulansa da, üzümdəki qrim daim gülürdü, güldürürdü.

Sevgilim təlxək olduğumu bilən gün buraxıb getmişdi. Ona ciddi biri lazım idi, məndən fərqli olaraq. Mənimlə fəxr etmək istəyirdi, rəfiqələri ilə haqqımda danışanda. Təlxək sevgilisi öyünmək ağır gəldi ona. Hər şeyi bir heç edib, yalan edib, özünə nifrət etdirib getdi.

Ad gününə dəvət olunmuşdum. Təbii ki, təlxək obrazında. Onu sonuncu dəfə orda gördüm. Günün əsas qəhrəmanının əlini tutmuş halda. Sevgilim və sevgilimin sevgilisi ürəkdən gülürdülər mənim şitdiklərimə... Yox, deyəsən tanımamışdı məni. Qrimsiz tanıya bilmədiyi bir insanı qrimli necə tanıya bilərdi ki?!

Səhnə... Kloun... Səs-küy, alqışlar, gülüşlər, fotolar... Səhnə arxası... Qrimini yuyan bir bədbəxt... Əsəb, baş ağrısı, solmuş çiçəklər... Evə tələsməyən bir kloun... Boş oturacaqlar, ölü sükut... Bayaqkı ajiotajın xatirəsini saxlayan tum qabıqları, cırılmış bilet parçaları, bir də, pərdələri bağlanan səhnə... Evə tələsməyən kloun... Sağ əlində içində çörək bir torba... Qaranlıq şəhər, qaranlıq insanlar, ulayan sahibsiz

küçələr... Gülmür heç bir döngə, heç bir təsadüfi sima. Səhər gördüyü çiçəklər də yoxdu parkda. Skamyaları qucaqlayıb, ciyərlərinin xışıltısı zümzüməsində yatan bomjlar var. Bir də öskürək səsləri. Tüfürcək səsləri. Gülməyi unutmuş, heç vaxt gülməmiş bir şəhər var və bir də evə tələsməyən kloun. Bir də bir dəli istək var ürəkdə. Qrimlənmək! Elə bu an, burda. Güldürmək qarşıya çıxan hər insanı. Hər dilənçini, hər acı, hər sərxoşu. Bu əsəbi şəhəri. Bu qaşqabaqlı cizgilərə rəng qatmaq. Günəş gətirmək gecəyə. Ümid vermək... Gülə-gülə öldürmək acını, xəstəlikləri, bütün pislikləri. Qoy hamı, hər şey gülsün. Sevsinlər gülüşü. Bəlkə onda təlxək lazım oldum boş evə. Bəlkə onda tələsdi evə...

# Uşağam

*“ Sevdiklərimizi təpikləməyə artıq ana qarnından başlayırıq. ”*
*( Ece Ayhan )*

Sən heç cinayətkar uşaq görmüsən? Tapdağın altında qalan hər qarışqanın, budağını sındırdığın hər ağacın qatilisən. Hər addımlamağı öyrənən uşaq milyonlarla canlının məhvi deməkdi. Nəyimiz pakdı ki? Haramız müqəddəsdi ki?

Bunu anlayanda çoxdan qatil olmuşdum. Sərxoş, bəxtigətərməyən atasının, içki satan bütün dükan sahiblərinin, çin olmayacaq arzuların qatili... Mənə oxunan nağılların sonunda göydən üç alma düşmürdü. Soyuq idi gecələr. Üşüyürdüm hər nağılın qışında. Hər cındır Məlikməmmədlərin yatmamaq üçün kəsilən barmağa duz tökdükləri vəhşiliyin sonunu xoşbəxtliklə yazan mazaxistlərin qurdlu almalarına tüfürmüşdüm. Böyüyürdüm əlçatmaz xəyalların qanadlarında. Başımı aldatmaq asan idi saqqızla. Xoşbəxtliyin çərçivəsi o vaxt çox balaca idi. Gündəliyə yazılan bircə beş kifayət edirdi bu ali hissi balaca dünyaya sığdırmağa. İlk məhəbbət kimi axmaq idi o illər. Qar da, yağış da, bayramlar da fərqli idi. Daha səmimi idi böyüklər. Daha dadlı idi yeməklər. Daha xoş idi xəstəliklər. Divarlar daha böyük idi. Rənglər daha əlvan idi. Ağlamaq da ürəkdən idi. Gülmək kimi... Daha asan idi sevdiklərimə "sevirəm" demək. Daha asan idi peşə seçmək. Həkim olmaq, əsgər olmaq. Daha asan idi qaçmaq, gizlənmək, yatmaq. Daha asan idi pul qazanmaq.

Məktublarla sevirdik. Partalara, divarlara, xatirə dəftərlərinə, yazırdıq bir-birimizin baş hərfini. Ən çətini ürəyə yazmaq idi. Onu da o vaxtdan indiyə kimi bacarmırıq. İlk yediyimiz şillə ilə silkələndi mərhəmət özülü. O an böyüdük. O an rəngli pərdələrin gizlətdiyi xarabalıqları görə bildik. Ağlamağa bəhanə axtarırdıq ki, başımızı sığallasınlar, yeni oyuncaq alsınlar. Eqomuzun palçıq tutanı idi valideynlər.

Bir gün Elçini gördüm. Onunla dostluq etməyi qadağan etmişdi valideynlərim. Bilmirdim, amma deyəsən səbəb Elçinin ailəsi idi. Atası

hansısa müharibədən qayıtmamışdı. Elçin fəxr edib deyirdi ki, “Mənim atam şəhiddi cəbhədə. Bu ən böyük rütbədi. Mən də şəhid olacağam!". Bir anası idi, bir də özü. Pəncərəm onların evlərinə baxırdı. Hər axşam onlara heç tanımadığım əmilər gəlirdi. Elçin də evdən çıxıb, həmin əmilər gedənədək pilləkanda oturub, gözləyərdi. Deyəsən həmin əmilər onun anasını döyürdülər. Hətta bir gün əmilərdən biri evdən çıxa-çıxa onun anasını söydü, qapını çırpdı, pilləkanda oturmuş Elçinə də bir təpik vurub, maşınına əyləşib getdi. Elçinsə ağlamadı. Qalxıb, şalvarını çırparaq evə girdi. O gündən mən də, daha ağlamadım. Hətta xəstələndikdə belə acı iynələrin yanımı göynətməsi belə gözümdən yaş çıxara bilmədi... Atamın bizi tərk etməsinə belə ağlamadım. Dedilər bizim pulumuzun çatmayacağı bir ölkəyə gedib. Ona görə bizim də onunla getməyimiz mümkün olmayıb. Anam isə bəzi səhərlər əlində güllər yavaşdan ağlayaraq harasa gedərdi. Deyirdi atama gül göndərir... Bir gün isə, məni bir böyük evə gətirdi. Ordakı arvadlarla söhbət etdi. Sonra məni öpüb getdi. O gündən onu bir daha görmədim. Dedilər atamın yanına gedib. Sevindim. Heç vaxt ağlamadım darıxsamda. Bu ev bizim evdən böyük idi. Çox böyük. Çoxlu oyuncaq, uşaqlar var idi. Həyətdə Elçini gördüm. Ağaclardan birinin arxasında siqaret çəkirdi. Ürək edib yanaşa bilməsəm də, özü görüb yanına səslədi...

- Hm, səni də atdılar bura? Bəs anan hanı?

Anlamırdım Elçin nə deyir. Ona görə sakitcə durub, ona baxırdım ki, o ikicə söz deyib, məni bir kənara itələyib getdi.

- Böyümək vaxtıdı!

# Yazıyam

*“ İnsan azad doğulur, lakin mən onu hər yerdə zəncirdə gördüm!”*
*(J.J. Russo)*

Eyy... Səninləyəm, eşidirsən? Təsdiq etmə, ay axmaq məni necə eşidə bilərsən? Görə bilirsən? Məni? Ayda, ay axmaq, mən heç özüm özümü görə bilmirəm. Maraqlıdı sən necə bunu bacarırsan? Mənə nə lazımdı? Səni əsəbləşdirmək! Hə, ay sağ ol, məhz səni! Yan yörənə baxma, səndən danışıram. De görüm işin gücün yoxdu? Bir axmaq məni yazır, səni əsəbləşdirir, sənsə hələ də oxuyursan axmaq kimi. Oxuma, çıx rədd ol məndən! Sən gözlədiyin sevgi yazısı deyil. Boş yerə ümid etmə. Bax dedim a, sonra əgər mızıldasan and içirəm bu sətirə, çıxıb burdan üzünə tüfürəcəyəm. Əşi, mənə nə var e kimsən? Kim olursan ol cəhənnəmə ki. Maraqlı deyilsən mənə. Amma deyəsən mən sənə maraqlıyam hə? Ləzət eliyir təhqirlərim? Mazaxist hisslərini oyadmışam? Yaxşı, gəl özüm haqda danışım sənə... Deməli adım Kəmalədi. Nədi sən oğlan düşünmüşdün məni? Ayda, doğurdan axmaqsan. Adım Kəmalə deyil. Və mən qız deyiləm. Heç oğlan da deyiləm. Transeksual ( düşündünsə axmaqlığına əmin ol! ) da deyiləm. Yazıyam da... Yazı. Hərif yığını. Nəbilim cümlə, roman, hekayə, şeir, fahişə, divar, Tibet, ət çəkən maşın. Necə gördünsə elə o yam! Mən yazıq sən axmağın və məni yazan bu alçağın fantaziyalarında canlanan adi bir yazıyam. Hə, harda qalmışdıq? Aha, deməli özümü təsvir edirdim. Bunları edirəm ki, o axmaq fantaziyalarında məni Al Paçinoya bənzətməyəsən. Deməli belə... Onun yoxluğu mənə çox təsir etdi. Evdə onun toxunduğu nə var idisə, hamısını satdım. Unitaza qədər. Əvəzinə heç nə almadım. İndi boş evdə qalıram. Akustika yaranıb otaqlarda. Və mən bütün günü mahnı oxuyuram. Hə bir də yaman içən olmuşam deyəsən. İçirəm, oxuyuram, qusuram, taxta döşəmədəcə yatıram. Yuxuda onu görüb diksinirəm. Elə siz də görsəz diksinərdiz. Böyrəyi bir balaca qaydasında olmayanlar isə döşəməni murdarlayardı. Bilmirəm hansı heyvana oxşadım ki, təsvir edə biləsiz. Məncə elə eybəcər heyvan yoxdu. Sifətindən danışmıram. Düşək aşağı. Deməli sağ döşü

deformasiyaya uğradığından, solda bir döşün yerinə iki döş əmələ gəlib. Göbəyinin üstündə isə elə murdar tük bitib ki, ilk dəfə görəndə dözməyib elə ora, göbəyinin üstünə qusmuşdum. İyrəncəm? Səndən xahiş eləmişdim məni oxuyasan? İyrənc sənsən ki, fantaziyaların hər cür eybəcərliyi ustalıqla təsvir edir. Mənə bax ya bu dəqiqə çıxıb rədd olursan burdan ya da marağına təslim olub oxumağa davam edirsən. Ay sağ ol. Bax belə... Sən nə sözəbaxan uşaqsan. Harda qalmışdıq? Hə döşdə. Yox e, tükdə... Guya indi ağıllısan da, hə? Əmin oldun ki, mən kişiyəm. Çünki, itirdiyim onun döşlərindən yazdım. Ay axmaq bəyəm kişinin döşü olmur? Ədalətin olsun! Hə, nəisə, davam edək... Deməli onun hər şeyi pis gündəydi. Təkcə dodaqlarından başqa. Uff, kaş bircə dəfə siz də o dodaqlardan öpə bilərdiz. Anjelina Coli ata-batası ilə qələt eliyir o dodaqların yanında. Ginnesin 24 saat durmadan öpüşən rekordçuları da biz olmuşuq. Gedib araşdırmayın. Saatı şişirtmişəm. Hə, o dodaqlarda şair olmaq olardı. Dəli olmaq olardı. Nitşe olmaq olardı. Ölmək olardı. Mən amma yazı oldum. O məni adam etmək istəyirdi. Adam kimi sevişmək istəyirdi mənimlə. Adam kimi görüşmək istəyirdi. Sizin kimi hansısa axmağın yadına nə vaxtsa düşəndə bizi varaqlayanda deyil. Qonşu səhifələrdə illərlə, aylarla bir-birinin həsrəti ilə yanırdıq. Axırda isə o cındır kirpiyə oxşayan, bayquşgöz oğlanın əlində getdi. Son səsini unuda bilmirəm... Cıırt elədi. Sonra isə onu tualetdə, istifadə olunan kağızlar arasında gördüm. Elə həmin gün gombul xidmətçi qadın onu da digər kağızlar kimi torbaya boşaldıb apardı... Belə... Sən amma elə bilirsən ancaq adamlar sevə bilir? Ancaq adamlar ayrıla bilir? Bilirsən nə var? Mən hələ sənin kimi axmaq adam görməmişəm. Özümü təsvir edərək son olaraq deyim ki, mən sənin şeytanın və vicdanınam. Buna da inandın? Sənə daha sözüm yoxdu! Eyy axmaq, saxla! Yazma! Səninləyəm e... Ya da son sözümü deyim, gözlə. Oxuduğunuz üçün təşəkkür edirəm. Səmimi olduğum üçün üzr istəyirəm öz və yazıçımın ad... ad... ad... Yaxşı, yaxşı öz adımdan danışacağam. Pozma. Səmimi olduğum üçün üzr istəyirəm öz adımdan.

**P.S.** *Ay axmaq zarafat elədim, sən kimsən ki, mən səndən üzr istəyim? Get fantaziyalarının üzrünü qəbul et!*

# Zibiləm

*“ Onlar onu sevdiklərindən məhv etdilər" (Parfümer)*

Yazıram... Yazaraq rahatlıq tapmağa çalışıram...

Gəlib oxuyacaqsız və sonuncu cümlə ilə həyat verdiyiniz sətirlər yenidən ilk görünüşünə qayıdacaq. Səssiz səmirsiz hərif yığını, mənasızlaşan cümlələr.

Elə istəyirəm ki, biri çıxsın məni tanımadan, görmədən " səni sevirəm " desin ürəkdən. Elə desin ki, silkələsin beynimi, silsin bütün çatlaq keçmişi. Ovsununa düşüm. Mən də sevim. Bir film qəhrəmanı kimi sevsin... Raziyam iki saat çəksin. Razıyam ağ-qara lentə köçsün. Sonda dramatik səhnə, fondaki ayrılıq mahnısıyla əlvidalar görüşsün, qəhrəmanlar duyğularda ölsün və...

...Buna görə sizin alqışlarınızla, 1-2 saatlıq təsir altında qalmağınızla öyünək...

Sən başqa cür sevmək istəyirsən?

Necə?

Kompliment dolu?

Ən bahalı ətirlə ətirlənmiş?

Allah bizi istədiyi kimi yaradıb, istəmədiyi kimi gördü.

Etiraf istəmişdin məndən?

Edirəm...

Məndə sevgi yoxdu! Verdiyin bir-iki damcı da yerə töküldü. Heç kimin həyatına girmədim. Qapımı da bağlamadım gələnə. Gəlib qonağ olub, müsahibə aldılar, ağ atımı soruşdular... Hər gedən bir gül qopartdı. Hər gedənlə küllər çoxaldı külqabıda. Bilirsən, danışanlara nifrət edirəm? Susmaqla danışmağın yerini, zamanını, anını bilmədən danışanlara... İndi oxuyub özünə sərf edən şəkildə dərk edəcəksən. “Bu yazını mənə həsr edib” deyəcəksən. Yox! Nə sənə, nə sənə, nə də sənə aid deyil bu yazılar. Bir gün həm sənə, həm sənə, həm də, sənə məndən salam yazılar. Bir salamın təsirinin əlvidadan daha böyük olduğuna şahid olarsan.

Gözəldi... Səni özgədən soruşmaq. Haqqında eşidilən hər xırda nüansı unutmamağa vərdiş etmək. Səni sənsiz və sevgisiz sevmək. Hər şey keçdi deyərkən bircə mahnıyla hər şeyin qayıdışı... Dönüşünün olmayacağı, heç bilmədiyin nömrədə, tanımadığın ünvanda səni gözləmək...

Bu hisslər səndə də var? Sevgi oxşardı ya insanlar?

Bilirsən fahişə də sevib... Yatağa kimi dartınan münasibətlərdə bakirəliyini sevgisinə qurban verəcək qədər çox sevib... Qarşılığında nə veriblər? Göz yaşı, bədbəxtlik. Bunu sən anlaya bilməzsən! Yanındakı insan da həmçinin. Təki yanınızdakı təmiz olsun, pak olsun, etiketli olsun, importnı suvenir kimi. Qalani cəhənnəmə ki!

Bəs sual vermisən özünə?

Nə üçün layiqsən hər şeyin ən yaxşısına?

Fahişə deyilsən ona görə?

Düşüncələrini fahişə etdiklərin bəs necə?

İki damla qanı pərdə arxasında qorumaqla olmur bakirəlik!

Olmur əxlaq!

Olmur sevgi!

Cəmiyyətdən alıb, oynayıb, doyduğun, sındırdığın oyuncaqları tulladığın zibillikləri düşünmüsən? Onları əridib, yeni oyuncaq yapırlar... Bizlər kimi... Vitrində gözəl görünür zibil də...

Gedib "Mənə zibil verin" demisən oyuncaq dükanına?

Söyür səni oyuncaqlar, polkalar, vitrin.

Sənə zibil etməyə zibil lazımdı. Zövq alırsan bunu edəndə. Adını da " uşaq, ilk, yalançı sevgi " qoyursan. Onu qucaqlayıb yatırsan. Onu öpürsən. Onu soyundurub, geyindirirsən. O da bir zibildi! Keyfiyyətli zibil.

# İnsanam

*“Ölmədən əvvəl ölün!” (Oşo)*

İnsanam. İnsanlıqdan və insanlardan uzaq bir insan... Çox paradoksal bir cümlə oldu. Anlamadın?! Anlamamalı nə var ki? Öz həyatına bax. Paradoksallıqdan çox uzaqdı həyatın? Nədi bu paradoksluq? Özünü dindar kimi aparıb metro vaqonlarının səhər sıxlığında qızların ora-buralarına əl atmaqdı paradoksluq. Bazlığa gedən şey boyda balaca küçüyün özünü kişi saymasıdı. Öz poxunun rəngini bilməyib başqa poxların rənginə gülməkdi. Hörmət edirəm dediyin qadınları masturbasiya xəyallarında mazaxist ehtirası ilə soyundurmaqdı. Bir insan desin ki, rolumdan razı qaldım. Bax bil bu paradoksluqdu. Heç kim roldundan razı qalmır çünki. Tərbiyəni “qəhbə” sözünə “fahişə” deməklə, söyüşləri nöqtələməklə ölçməkdi. Dildə mental düşüncələri bayraq eliyib, ona əks getməkdi. Və söyüşlərimə görə indi məni qınamaqdı paradoksluq. Guya sən söyüş bilmirsən hə? Gözünü yum! Yada çıx tez, oxuma bu yazını! Tərbiyən pozular. Özünə aynada baxıb aynadakını tanımamaqdı paradoksluq! Gördüyün hər şeydi. Görməkdən qorxan axmaq olduğunu bilirsən?!

Boş otaq! Məni-məndən alan musiqi. Stolun üstündə yarımçıq qalmış “Parfümer”. Üstümə gələn divarlar... Ülgüc... Biləklərimi kəsib divara böyük həriflərlə “mən insanam” yazmaq keçir içimdən. Ağlıyıram. Səbəbsiz... Mütləq bir səbəb olmalıdı? Hönkür-hönkür ağlıyıram. Hər tamaşa sonu boş zalda oturub ağlıyan təlxək kimi. Zibil kimi, sadist kimi, sevgi kimi, dəli kimi, Bakı kimi, uşaq kimi... insan kimi...

Axtarmısan heç özünü? Həyat tamaşasında başqa rollarda çıxış edib , başqa pəncərələrdən baxmısan dünyaya? Bəlkə də qorxmusan. Hə?! Biz biz olmağa qoymayan fobiyalar... Ən pisi bilirsən nədi? İnsanın qorxularından belə qorxması. Və hər artan qorxu səni səndən bir az da uzaqlaşdırır.

Hə. Sual vermişdim. Axtarmısan özünü? Mən axtarmışam. Başqa pəncərələrin açıldığı mənzərələri düşündükcə unutdum qorxuları maraqdan. Axtarmağa başladım özümü.

Uşaq oldum. Bu dəfə başqa cür oldu hər şey. Balaca pəncərədən boz şəhər çox gözəl görsənirdi. Hər eybəcərlikdə bir gözəllik vardı. Hər mənasız Məlikməmməd nağıllarında bir məna... Vitrinlərdəki sahib ola bilmədiyin oyuncaqlara nə vaxtsa sahib olmaq ümidi... Hər yalanda bir həqiqət vardı. Hər ölümdə bir doğuluş... Və bir gün Elçinin bir şilləsi və zərbə ardından işlətdiyi "Böyümək vaxtıdı!" cümləsi ilə dəyişdi hər şey. Hər şeyi fərqli görən "uşaq eynəy"i qırıldı. Dəyişdim rolumu. Qrimlənib boş səhnələrə atdım özümü. Təlxək oldum. Üzümə saxta gülüşü çəkib güldürməyə başladım insanları. Qəhqəhələr arasından bir şəhzadənin çıxaraq üzümün qrimini silib "gəl gedək!" deməsini gözlədim. Və pıçıltı eşitdim süni gülüşlər arasından: "təlxəklər sevə bilməz... təlxəklər ağlaya bilməz...". Boş səhnədə doyunca ağlıyıb sonra qaçdım. Qoydum ordaca "təlxək sima"mı. Və sevgiyə çevrildim. Yarımçıq bir həyat romanının əsas hissəsi oldum. Bəzən ağlatdım. Bəzən güldürdüm. Bəzən əzab çəkdirdim. Bəzənsə əzab çəkdim. Anladım ki, sevgi tək xoşbəxtlik gətirmir. Sevgi həm də əlindəki xoşbəxtliyini alır. Bezdim yarımçıq romandakı rolumdan. Dəli olub şəhərin boz küçələrinə verdim özümü. Özüm oldum. Qulaq asmadım insanlara, qulaq asdım istəklərə. Və doyunca güldüm mənə baxıb gülən dəlilələrə... İnsanlığı çərçivələrdə gördükcə qırdım çərçivələrimi. Dost oldum dənizlə, binalarla, küçələrlə, itlərlə və tənha Bakıyla. Ağladım onunla Xəzərin sahilində tənhalıqdan bezib. Göz yaşlarımız qarışdı iyrənc dəniz sularına. Dərd otağına çevrildim Bakının. Amma anlamadım onu. Susdum. Bir gecə yatağındaca onu ondan aldım. Bir səhər Bakı kimi açdım gözümü dünyaya. Onda anladım tənhalığı, onda anladım Bakını. Və başa düşdüm ki, "anlamaq" üçün sözlər kifayət etmir, nə rəngli fırçalar, nə də musiqi... Anlamaq üçün bəzən yaşamalısan yad hissləri. Və asan deyil başqa biri olmaq. İnsanların hər gün bir az da məhv etdiyi şah əsərdi "Bakı"... Mən onun bədənində... Atdım bədəni. Qorxdum yükünü qaldırmaqdan. Zibil oldum. Zibil kimi yaşadım. Bir zibil qutusunda həyatı dərk etdim. İnsanların gizlətdikləri zibilləri bədənimə qarışdıqca böyüdüm. Və iyrəndim böyüdükcə özümdən. İyrəndim

insanların öz zibillərini bədənimdə gizlətməsindən. Reallıqlardan qaçdım. Virtual aləmin bir köşəsinə sığınıb şahlığımı qurdum. Böyütdüm yerimi. Milyonlarla insan həyatının admini seçdi məni. Admin oldum. Qarışdım başqa həyatlara. Tanrı oldum öz köşəmdə. Tanrısı olan bir tanrı... İnsanlar bu qədər kiçik görsənməmişdi kölgəmdə. Tanıdıqca utandım insanlıqdan, utandım insanlardan. Milyonlardan birini seçib ona çevrildim. Bir yazar oldum. Sadist düşüncəmlə yazdım yazmaq istədiklərimi. Unutdum sərhədləri, unutdum unudulması lazım olanları... Azadlığımı tapdım ağ vərəqlərdəki dünyada. Deyibdə deyə bilmədiklərimi düzdüm mürəkkəblə kağıza. Və sonra yazı oldum. Öz əsərimə çevrildim. Məni oxuyanları söydüm yerimdən. Güzgüsü oldum oxucumun. Özlərinə deməyə çəkindiklərini dedim üzlərinə. Utanmadım belə, abırsızca dedim... Və oxuyucusu oldum sonra əsərimin. Özümü cümlələrdə tapdım. İllərlə axtarışında olduğum şeyləri

Beləcə gəzdim səyyah kimi... Fərqli obrazlar, fərqli həyat mənzərələri, fərqli insanlar, fərqli hisslər... Və sonda tapdım özümü. Anladım ki, mən insanam. Bilirəm sən də insansan. Səndə fərqliliyim isə mənim insanlığımı dərk etməyimdi.

# “13”əm

*" Egər əşyalar qiymətləndirilməsə, oğru da olmaz " ( Lao Tszi )*

Mündərciata baxar-baxmaz o dəqiqə bəzi səfehlər məni Orxan Pamukun "Mənim adım qırmızı" romanına oxşadıblar. Bəziləri isə 13 rəqəmi haqda olan nəhs inancları düşünüblər. Niyə 13? Əşi, kefim belə istəyib, sonra? Niyə hər şeyə o plastik əməliyyatın belə düzəltməyəcəyi burnunu soxursan? Sənə nə? Belə maraqlıdısa sənə, bir neçə variant verim, hansına inansan, onu da cavabım olaraq qəbul et. Numeralogiyalıq bir şey yoxdu. İsanın 13-cü şagirdindən də ilhamlanmamışam. Babulyaninin "Tzameti" filminin əlaqəsi yoxdu bu kitabla. Maya tayfasından da deyiləm ki, 13 rəqəmini uğurlu sayım. Dörd kitab buraxacağam. Hələ ki, bu üçüncüdü. Dördüncü də e-book olacaq. Yəni 1 və 3 arasına bir “+” at. 13 nəfər dəli gələcək dünyaya. Mən 13-cüyəm. 13-cü sevgilimə və ayın 13-ü doğulanlara həsr etmişəm bu kitabı. 13 "B" hərfi yaradır. OOK- də artırsaq, 13 elə "Book" deməkdi. 13 "Mən" daxildi 13-ə. Hər "Mən"-dəki 13-cü cümlələri birləşdirsək yeni "Mən" yaranacaq. İnanmırsan?

Adminəm - *Mən ikincini heç düşünmürdüm.*

“13”əm - *Hələ ki, bu üçüncüdü*

Dəliyəm - *Heç nə demədən ayrıldım ondan.*

Oxucuyam - Bəlkə *də düşünürsən ki, o heç sevməyib.*

Sadistəm - *Sübut edim?*

Sevgiyəm - *Bilirəm, elə düşünürsən ki, unutmuşam.*

Uşağam - *Başımı aldatmaq asan idi saqqızla.*

Yazıyam - *Bir axmaq məni yazır, səni əsəbləşdirir, sənsə hələ də oxuyursan axmaq kimi*

Yazaram - *Oxuyurlarmı?*

Şəhərəm - *Murdarlığımda çürüyürlər.*

Təlxəyəm - *Hamını güldürmək missiyasının əbədi daşıyıcısı olan bir obraz olaraq.*

İnsanam - *desin ki, rolumdan razı qaldım…*

Zibiləm - *...Buna görə sizin alqışlarınızla, 1-2 saatlıq təsir altında qalmağınızla öyünək...*

Hər sonluq bir başlanğıcın əvvəlidi!